# Mənəvi zənginliyimizi qorumalıyıq



**İslam İbrahimov,**
**Professor, Azərbaycan Yazıçılar Birliyinin üzvü**

*(əvvəli ötən sayımızda)*

Tanınmayan, səsi və sənətkarlığı ilə rəğbəti olmayan, efir mədəniyyəti çox aşağı insanlar hansı yolla isə efirə çıxır, mənasız söhbətlər, qalmaqallar, bir-birinə atmacalarla tamaşaçıları ifrat dərəcədə yorur, iyrəndirirlər. Veriliş aparıcıları çox vaxt müğənnilər, yaxud kanal rəhbərlərinin yaxınları olur, bu və digər layihələr adı ilə, sponsor hesabına özlərini gündəmdə saxlamaqla mədəniyyətimizi, mənəviyyatımızı korlayır, ona ağır zərbələr vururlar. Hamıya məlumdur ki, respublikamızda suverenliyin xalqa verdiyi nailiyyətlər çoxdur. Ancaq bu verilişlərdə hiss olunur ki, şəxsi maddi və mənəvi maraq üstünlük təşkil edir. Dağlarımızın, kəndlərimizin həmişə bahar qoxulu havasını ciyərlərinə çəkib, günəşinə doyunca isinmək istəyən, ana torpağımızın mənfur erməni tapdağından azad edilməsinə dair yeni mövzuların teleekranlarda işıqlandırılmasına, ölkəmizin zənginlikləri ilə qürurlanan insanlarımızın şücaətlərindən danışmağa çoxlu üfüqlər açılıb. Başımıza gətirilən faciələri soyuq ağılla və isti ürəklə anlayan, onu tərənnüm etmək istəyənlər çoxdur. Ölkənin uğurlu inkişafının ağır yükünü çiyinlərində daşımağı bacaran, milli qüruru hər şeydən üstün tutan, ləyaqətli həyat tərzi ilə seçilən oğul və qızlarımıza geniş meydan verilməlidir. Heç sirr deyil ki, restoran, kafe müğənniləri, səviyyəli musiqi savadı olmayanlar məclislərə dəvət edilirlər. Onlara 5-10 min manat, hətta bir saat, yarım saat üçün 3-5 min manat pul verirlər. Bu qədər havayı pul verənlər heç bir məsuliyyət daşımırlar, çəkinmirlər. Televiziya verilişlərinə baxırsan, oraya dəvət olunanlar ağzını açanda adam xəcalət çəkir. Mədəniyyət və tərbiyəsi olmayan, əxlaqı çoxlarına məlum olan bəziləri sinəsi, baldırı açıq atılıb-düşür, ombasını, iyrənc yerlərini göstərirlər, biabırçı ifadələrlə ekran qarşısındakıları təhqir edirlər. Proqram rəhbərləri, şadlıq saraylarının, məclis keçirilən yerlərin rəhbərləri hara baxırlar?! Onlara "dayan" demirlər! Çünki belələri sərf edir!

Verilişləriniz ancaq 5-10 müğənnidən, yaxud Zaurlardan, Xoşqədəmlərdən, Lalələrdən, Elgizlərdən ibarətdir? Bezmişik. Səhərdən axşama kimi efirdə bütün verilişlər reytinq xatirinə, demək olar düşük müğənnilərin rüsvayçı söhbətləri və bəzi hakimlərin reklamları ilə əhatə olunub. Artıq millətin çoxu belə verilişlərdən, musiqidən də iyrənir. Televiziyalarda bəzi kanallar bir neçə aparıcılara, onların ailələrinə, dostlarına işləyir. Kim nə yedi, nə içdi, hara getdi, necə yatdı, necə durdu? Hətta ekranlar əxlaqsızlıq təbliğatına çevrilib, insanların şərəf və ləyaqətinin alçaldılması təbliğ edilir. Gələcəyə, gəncliyə zərərli mesajlar verilir.

Azərbaycanda dünyada analoqu olmayan qəhrəmanlar 44 gündə vətənə canını qurban verdi, şəhid oldu. Bizim bu şərəfli tariximizə aid seriallar, filmlər çəkmək, onları xalqa, gənclərə yaxın-dan tanıtmaq şərəfli bir iş olardı. Yaxud tariximizə, mədəniyyətimizə, elmə aid verilişlər göstər-məyi bacarmırsınızmı?

Nə qədər ata-bala, ana-bala, ər-arvad, qohum-əqrəba aparıcılıq edəcək, istədikləri kimi oturub-duracaq, efirə yaraşmayan ifadələrlə bizlərin zövqünü korlayacaqlar?! Həqiqətən, bunların əlindən televizorlara baxmaq olmur. Dediyim kimi, 5-10 müğənni, aparıcı nə qədər baxımsız, iyrənc, səviyyəsiz ailə-məişət söhbətləri edirlər, evlərini, villalarını, bağlarını, əşyalarını, geyimlərini, var-dövlətlərini nümayiş etdirirlər. Bunların harınlamaqlarına kimlər şərait yaradırlar, onlara bir "durun" deyən yoxdurmu? Verilişlər elə bil o aparıcılardan, müğənnilərdən asılı vəziyyətə düşüb. Ağılsızlar millətə ağıl öyrədir, ədəb-ərkan öyrədirlər.

Bunlar gənclərin inkişafına mənfi təsir göstərir və havayı var-dövlət əldəetmə meylləri aşılayır, ailə-məişətdəki narazılıqların yaranmasına səbəb olurlar və s. Xəstə, bədbəxt, yazıq adamları, məişətində qüsurları olan adamları ekrana çıxarmayın, rüsvay etməyin!

Göstərilənlərə gənclərin münasibəti də maraqlıdır. Gənc müğənni Almaxanım Əhmədova sosial şəbəkələrdə və televiziya kanallarında mahnı oxuyan və televiziyanı zəbt edənlərin biabırçı söhbətlərini kəskin tənqid edir və bildirir ki, ***"Evdə bəzi özəl kanalları silmişəm ki, gözüm verilişlərdə gedən düşük söhbətləri görməsin. Təəssüf ki, görmək istəməsəm belə, bəzən sosial şəbəkədə qarşıma çıxır."*** Almaxanım haqlı olaraq qeyd edir ki, səviyyəsi yerlərdə sürünən bəzi müğənnilər çıxıb verilişdə "kimin toyu daha çoxdur, mənim, ya filankəsin?" mövzusunda mübahisə edirlər. Həqiqətən, görün, necə vəziyyətdəyik ki, müğənni çıxıb konsert tarixlərini elan etmək əvəzinə, bu ay 10 dənə, 20 dənə toyum var və s. kimi axmaq söhbətlər edir. Hələ bu azmış kimi, aparıcı da deyir ki, bu ay toylardan nə qədər qazandın? Demirəm toyda əsər oxuyun. Fikrimi düz başa düşün. Görün, insanlar necə işlər ortaya qoyurlar? Toy, toy, toy...

Çox haqlı olaraq Almaxanım efirdə gedən bu söhbətləri iyrənc adlandırır. ***"Efirdə nə vaxtadək belə iyrənc söhbətlər gedəcək axı? Gənclər baxıb nədən maariflənəcək? Mən toya getməyi ayıb hesab etmirəm. Özüm də gedirəm. Amma bununla öyünmək sənətçinin bədbəxtliyidir. Bir sənətçi ki, 30 ildir ancaq toy oxuyur, bir dəfə də olsun konsert verməyibsə, zal dolmayıbsa, bu o sənətçinin çöküşü deməkdir".*** Çox əla fikirdir. Əhsən belə gənclərimizə!




Bir neçə kəlmə seriallar barədə. Serialların insanların şüuruna, dərrakəsinə təsiri şübhəsizdir. Buradakı fantaziyalar, yalan, saxta, fırıldaqla dolu, şişirdilmiş əhvalatlar, heç bir etik normaya sığmayan, çılpaq bədənlərinin nümayişi - çox vaxt köməksiz, ümidsiz, müsbət keyfiyyətlərin daşıyıcısı olan insanları sonradan düzələ bilməyən bərbad vəziyyətə düçar edir. Fikirləşirəm ki, seriallardakı qeyri-əxlaqi yolla basit, məntiqsiz ifadələr işlədən və özlərinə yüngül fəaliyyət, həyat tərzi seçənlər, onu seyr edənlər bu seriallardan təsirlənə bilir və mənəviyyatlarını korlayırlar, üstəlik zənginliklərinə, hisslərinə xoşbəxt anlar bəxş etmirlərsə, nəticədə cəmiyyətə də faydasız olurlar. Mənəvi saflıq korlanır, ikiüzlülük, yaltaqlıq və mənfi hallar artır.

Hansısa pis əməllər, xoş olmayan adət varsa, onu xalqın mental tarixinə, sosial-mədəni keçmişinə bağlamaq olmaz. Həmişə cəmiyyətdə baş verən bu kimi mənfi halları biz ziyalılar, intellektual cəmiyyət qəbul etməmişik, onlara qarşı mübarizə aparmışıq, sivil cəmiyyətdə qınamışıq.

Belə düşünürəm ki, keçmiş tarixi dövrdə baş verən bir çox müsbət hadisələri indi dirçəltmək, təbliğ etmək və maarifləndirməklə bərpa etmək olar və bu, cəmiyyətin inkişafına imkan verər.

Adam var ki, o elimizin vicdanı, abır-həyası, ləyaqəti, şərəfi sayılıb. Soyuqqanlı, biganə, laqeyd, özündənrazı olmayıb. Hər işçini öz doğması, əzizi kimi görür, onların qayğısına qalır. Böyüklüyünü hər an anlayan, ucalığını üstün tutmayan, özünü hikkəli, ədalı və zəhmli rəhbər kimi aparmayan belə adamlara həmişə hörmət və rəğbət bəslənilib.

Heç yuxumuza da gəlməzdi ki, ağıldan nataraz olan, abır-həyasını pulla ölçən, təhqir və şantajdan ləzzət alan adamlar aparıcılıq edər, uzun müddət aparıcı kimi yaradıcılığı, savadı və təşəbbüsü ilə fərqlənməyənlərə meydan verilər, bu mövqedən sui-istifadə edilər.

Başqa sözlə desək, teleekran qarşısında oturan insanlara hörmət qoymayanlar, onların hissiyatına saymaz yanaşanlar tamaşaçı səviyyəsini də özlərindən çox aşağı hesab edirlər. Belə olduqda belələri düşünməlidirlər ki, onlar rəğbət deyil, nifrət qazanırlar.